**Atatürk Üniversitesi Edebiyat Fakültesi Dergisi**
*Atatürk University Journal of Faculty of Letters*
**Sayı** / *Issue* **67**, **Aralık**/ *December* **2021,** 32-41

# BƏDİİ-SƏNƏDLİ BİOQRAFİK NƏSRDƏ PSİXOLOGİZM

## Kurgu Belgesel Biyografik Eserlerde Psikolojizm Özellikleri

## Features of Psychologism in Fictional Documentary Biography

(Makale Geliş Tarihi: 15.03.2021 / Kabul Tarihi: 06.05.2021)

**Lala HASANOVA**[*]

**Xülasə**

Son illərdə yaranan bioqrafik əsərlərdə əsasən sovet dövründə sistem tərəfindən əzilən, qadağalara məruz qalaraq müəyyən çərçivələr daxilində yaşayıb yaratmış yaradıcı insanların taleyi əks olunur. Yaradıcı insanın qarşılaşdığı çətinliklərin, yaşadıqları ağrının canlandırıldığı bu əsərlərdə ədibin həyatı bütünlüklə deyil, əsasən, mürəkkəb və kəşməkəşli mərhələləri əks olunur. Faktlara, gerçək hadisələrə istinad edən müəlliflərin konkret şəxsin taleyini canlandırmaqla yanaşı, dövrün ümumiləşdirilmiş mənzərəsini təsvir etməyə çalışdıqları görünür.

Məqalədə bədii və bədii-sənədli nəsr üçün xarakterik olan psixoloji təsvir vasitələri, psixologizmin xüsusiyyətləri araşdırılmışdır. Ananın "Həyatım ağrıyır", "Kərəm kimi" əsərləri təhlilə cəlb edilmiş, bioqrafik əsərlər üçün xarakterik olan üçüncü şəxs tərəfindən təhkiyə, müəllif konsepsiyası, assosiativ kompozisiya kimi xususiyyətlər təhlil edilmşdir.

**Açar sözlər:** Bioqrafiya, Psixologizm, Təhkiyə, Assosiativ Kompozisiya, Müəllif Konsepsiyası

**Öz**

Son yıllarda yaratılan biyografik eserler, Sovyet yıllarında sistem tarafından ezilen, kısıtlama ve zulüm atmosferinde yaşayan yaratıcı insanların kaderini

[*] Doç.Dr., Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsi, Assoc. Prof. Dr. Department of Azerbaijan literature independence period, Institute of Literature named after Nizami Ganjavi National Academy of Sciences of Azerbaijan, hltlala@mail.ru, ORCID ID: https://orcid.org/0000-0001-9448-1519

yansıtıyor. Bu tür çalışmalarda anlatılan karakterin "başarı öyküsü" değil, karşılaştığı zorluklardır. Ana görüntünün hayatı tamamen tasvir edilmemiştir. Yazar, yaratıcı bir kişinin sistemle çarpışmasının en canlı şekilde yansıtıldığı bölümlere odaklanan "büyük" bir görüntü kullanır. Yazarlar, belirli gerçeklere ve olaylara atıfta bulunsalar da bu çalışmalar aynı zamanda Sovyet döneminin genel bir resmini de tasvir ediyor.

Makalede estetik ve belgesel nitelikli nesir için seciyevi olan psikolojik tasvir vasıtaları ve özellikleri araştırılmış, Anar'ın "Hayatım Acıtır" ve "Kerem Gibi" adlı eserlerinde biyografik eserlere özgü, üçüncü şahıs tarafından yapılan tahkiye, yazarın düşüncesi ve olay örgüsünün kuruluşundaki ilişki tahlil edilmiştir.

**Anahtar Kelimeler:** Biyografi, Psikoloji, Anlatım, Çağrışımlı Kompozisyon, Yazar Kavramı

## Abstract

Biographical works created in recent years reflect the fate of creative people who were oppressed by the system in the Soviet years, lived in an atmosphere of restrictions and persecution. In such works, it is not the character's "success story" that is depicted, but the difficulties he faces. The life of the main image is not depicted entirely, the author uses a "large" image, focusing on episodes in which the collision of a creative person with the system is most vividly reflected. Although the authors refer to specific facts and events, these works also depict a generalized picture of the Soviet period.

The article examines the means of psychological description, the peculiarities of psychologism characteristic of fiction and fiction-documentary literature, the author's concept, associative composition. Biographical works of Anar "Life hurts" and "Freely Kerem" were analyzed.

**Keywords:** Biography, Psychologism, Narration, Associative Composition, Author's Concept

## Giriş

Sovet ədəbiyyatında tarixi şəxsiyyətlərin, tanınmış insanların həyat və yaradıcılığının gələcək nəsillərə örnək olaraq təbliğ edildiyi bioqrafik janr didaktiv məzmun kəsb edir, bioqrafik əsərlərin qəhrəmanları öz uğur hekayəsini yazan, fərəhli ömür sürən insanlar kimi təsvir olunurdular. Mühacirətdə yaşayan müəlliflər sistemə qarşı fikirlərini açıq-aydın ifadə edirdilərsə, yenilik havası ilə bir çox ümidlərə qapılan və ya qapılmağa məcbur edilən yerli sovet vətəndaşlarının tam əks mövqe sərgiləməsi müşahidə olunurdu. Zaman keçdikcə hakimiyyətin amansızlığı, məhv edilən, öldürülən minlərlə insan taleyi hər kəsi narahat edir, yeni cəmiyyətin təbliğ etdiyi nikbin əhval - ruhiyyəyə rəğmən, ruh düşkünlüyü doğururdu. Sistem özü-özünü ifşa etdikdən sonra, vədlərin gerçək olmadığı, ali ideyaların uğursuz şəkildə reallaşdığı açıq-aydın göründükcə insanlara hakim kəsilən ruh yüksəkliyi peşmançılıq hissi ilə əvəzləndi.

Postsovet dövrü ədəbiyyatında bu yanaşma kökündən dəyişir. 70 il “şad xürrəm” yaşadıqlarına inanan nəslin ötənlərə obyektiv nəzər salma cəhdi bədii-sənədli nəsr nümunələrinin sayının artması ilə nəticələnir. XX əsrin sonlarından başlayaraq Rusiyada, Belarusda, Qazaxıstanda və başqa ölkələrin ədəbiyyatında bədii-sənədli əsərlərin sayının artması mövzunun tədqiqini aktuallaşdırmışdır (Mesterqazi, 2008; Romanova, 2020; Muratova, 2018).

Bir çox sovet yazıçı və şairlərinin taleyinin əks olunduğu bioqrafik əsərlərin qələmə alınmasında əsas məqsəd məlum stereotipləri dəf edərək, sovet dövrünün tragizminin, insanların yaşadıqları ağrıların canlandırılmasıdır. Yazıçı və sistem qarşıdurmasının əks olunduğu bədii-sənədli nəsr nümunələrində sistemə qarşı etirazını, narazılığını içində boğan insanın daxili iztirabları, mənəvi sarsıntıları göstərilmişdir. Əsasən fraqmentar kompozisiyanın yer aldığı bioqrafik əsərlərdə personajların "ağrıyan həyatının" (Anar) acıları canlandırılmış, üzləşdikləri fiziki və mənəvi təyziqlər təsvir edilmişdir.

Elmi–nəzəri əsəbiyyatda bioqrafiyaların - elmi, bədii, elmi-populyar və akademik növləri fərqləndirilir (Rarenko, 2017: s. 8). Bioqrafiyaların digər növlərində əsasən elm xadimlərinin həyatı təsvir olunursa, bədii-sənədli əsərlərdə yazıçı və şairlərin həyatı canlandırılır.

Birinci tip əsərlərdə, personajın həyatı xronoloji ardıcıllıqla təsvir edilirsə, bədii-sənədli nəsrdə bədii xüsusiyyətlərlə yanaşı, publisistikada olduğu kimi müəllif “Mən” i önə çıxır, xronoloji təsvir assosiativ təhkiyə ilə əvəzlənir. Bədii-sənədli əsərlərin müəllifi elmi bioqrafiyalarda olduğu kimi, yalnız hadisələri təsvir etməklə kifayətlənmir, həm də baş verənlərlə bağlı öz düşüncələrini bölüşür, özünün həyat və cəmiyyət haqqında fikirlərinə geniş yer verir.

## 1. Müasir Azərbaycan ədəbiyyatında bioqrafik janr (Anar “Həyatım ağrıyır”, “Kərəm kimi”)

Xalq yazıçısı Anar son illər ərzində tanınmış insanlar haqqında bir neçə portret-oçerk, bioqrafik povest və romanlar qələmə almışdır. Yazıçının «Həyatım ağrıyır» (1993) xatirə-povestində xalq yazıçısı Ənvər Məmmədxanlının tragik obrazı təsvir olunmuşdur. «Həyatsevər insan idi... Amma bu nikbin təbiətli insanın ömrü boyu «həyatı ağrımışdı» (Anar, 2014: s. 248). Ə. Məmmədxanlını yazıçı, şəxsiyyət olaraq dəyərləndirməyə çalışan müəllif, onun tənhalığına aydınlıq gətirə biləcək epizodlar üzərində geniş dayanmışdır. Müəllifi məşğul edən əsas mövzu, sovet yazıçısının daxili narahatlığı və nigarançılığını doğuran səbəblər, yaradıcı insanın daxilində tüğyan edən üsyandır.

Ənvər Məmmədxanlının ailəsinə, özünə qarşı təyziqlərdən bəhs edən yazar, qəhrəmanın emosional gərginliyini şərtləndirən ata həsrətindən bəhs etmiş, tənhalığını, əzmkarlığını vurğulamışdır. Əsərdə onun yaxınları - atası, qardaşı haqqında hekayətlər personajın daha dolğun xarakterizə olunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Yazar Məmmədxanlının həyatının ən ağır dövrlərini, sistemlə konfliktini şərtləndirən epizodları əks

etdirməklə "iri plan"dan istifadə etmiş, yazıçının içində boğduğu ağrını göstərməyə çalışmışdır.

Xalq yazıçısının digər bədii-sənədli əsəri Nazım Hikmətin həyat və yaradıcılığından bəhs edən «Kərəm kimi» (2000-2014) bioqrafik-düşüncələr romanıdır. Nazim Hikmətin yaradıcılığına, haqqında yazılanlara istinad edən, şairin həyat yolunu gerçək faktlar əsasında təsvir etməyə çalışan müəllifin məqsədi şair haqqında formalaşmış mifi aradan qaldırmaqdır. Bu səbəbdən, romanda Nazim Hikmət obrazı mifdən reallığa doğru canlandırılmışdır. Onun siyasi fəaliyyəti, həyatında olan qadınlar, sevgi münasibətlərinin əhatəli təsviri yazıçının obrazı ideallaşdırmaqdan uzaq olduğunu, bu mürəkkəb taleli insanı, dövrünün böyük şairini oxucuya olduğu kimi təqdim etməyə çalışdığını bəlli edir.

Əsərinin janrını «Nazim Hikmətin həyat və yaradıcılığı haqqında düşüncələr romanı» kimi müəyyənləşdirən nasir bioqrafiya, esse kimi klassik anlayışlardan istifadə etməkdən çəkinərək, romanın janr baxımından indiyə qədər şair haqqında yazılmış olan əsərlərdən fərqli olacağını bildirir. Nazim Hikmət onun üçün «XX yüzilin və bəlkə də bütün gələcək dövrlərin ən böyük şairlərindən biri olmaqdan başqa», bəlkə də ən əsası «keçən əsrin bir çox mühüm problemlərini öz yaradıcılığında və mübarizəsində, ... mürəkkəb, ziddiyyətli, dramatik, bir çox məqamlarda faciəvi taleyində əks etdirmiş zəngin dolğun şəxsiyyətdir" (Anar, 2015: s. 5). Nazim Hikməti "XX əsrin rəmzi olan şəxsiyyət... keçən əsrin düyünlərinin obyektiv, qərəzsiz, ədalətli və insaflı açılması üçün də həyatı və yaradıcılığıyla misilsiz örnəklər verən insan» (Anar, 2015: s. 5) olaraq qiymətləndirən müəllif, şair ömrünü dəyərləndirərkən ötən dövrün xüsusiyyətlərinin öyrənilməsinin vacibliyini vurğulayır. Bu səbəbdən, bioqrafiyaların «üçüncü şəxs tərəfindən bir insanın taleyinin" (Narkeviç, 1962: s. 620) rekonstruksiyası deyil, bir fərdin taleyi çərçivəsində bütöv bir epoxanı, dövrü canlandırma cəhdi kimi qiymətləndirilməsi, fikrimizcə, daha məqsədəuyğun olardı.

### 2. Bioqrafik nəsrdə psixoloji təsvir

Bədii-sənədli nəsrdə ənənəvi psixoloji təsvir vasitələrdən istifadə çox zaman mümkün olmur: avtobioqrafik əsərlərdə müəllif və personaj bir-birinə yaxın olsalar da, hadisələrin baş vermə anından bəlli bir zamanın keçməsi psixoloji dərinliklərin canlandırılmasına maneə yaradır, əsas olan hadisələrin bu günün müstəvisindən qiymətləndirilməsidir. Zənnimizcə, bədii-sənədli əsərlərdə personajların hisslərinin, əhval ruhiyyəsinin statik təsviri ("psixoloji təsvir") verilir, "hisslərin, düşüncələrin dinamikasının" ( Panova, 2011: s. 319) əks olunduğu psixoloji təhkiyə isə yer almır.

Tədqiqatlarda XX əsr ədəbiyyatında psixologizmin yeni keyfiyyətlərlə zənginləşdiyi vurğulanır (Kolobayeva, 1999: s. 20). Bədii ədəbiyyatda əsasən psixologizmin sintetik formaları, təhtəlşüurun, "psixikanın "alt" qatlarının" tədqiqinə üstünlük verilirsə (Kolobayeva, 1999: s. 20), bədii-sənədli nəsrdə analitik təsvir yer alır. "Roman müəllifi, əsasən, personajları hərəkətləri, düşüncələri, söhbətləri vasitəsilə canlandırır, özü isə bəzi hallarda hadisələrə müdaxilə edir. Lakin xarakterin, əhvalatın, əşyanın ümumiləşdirilmiş təsviri yalnız sintez yolu ilə deyil, izahlı şəkildə analitik formada ifadə oluna bilər. Bu ona görə mümkün olur ki, bədii kontekstdə analitik şəkildə bölünmüş elementlər asanlıqla yeni

struktur birliyi şəklində birləşir" (Qinzburq, 1977: s. 66). Bədii-sənədli əsərlərdə müəllif "sadəcə hadisələri nəql edən təhkiyəçi və ya hekayəçi olmadığı üçün, onun səsi də eşidilməlidir. Dialoqlar, səhnələr, hadisələrin və hisslərin təsviri müəllif mühakimələrində ifadə olunmuş xarakterlərin konsepsiyasını təsdiqləməyə" (Qinzburq, 1977: s. 66) hesablanmışdır.

Bioqrafik əsərlərdə üçünçü şəxsin başqa birinin hiss və düşüncələrini tam şəkildə duyması, daxili monoloq, yuxular vasitəsilə personajın daxili dunyasına baş vurması mümkün deyildir. Həmçinin, avtobioqrafik əsərlərdə də, illər sonra həmin an yaşanan hissləri xatırlayaraq tam dəqiqliklə canlandırmaq olmaz. Ani yaşanılan hisslər deyil, vəziyyətin doğurduğu duyğu və həyəcan uzun zaman yaddaşda qala bilər.

Bu səbəbdən, bioqrafik əsərlərdə psixoloji məqamlar əsasən dolayısı yolla - müəllif təhkiyəsi vasitəsilə canlandırılır, sənədlərdən (bioqrafik qəhrəmanın öz məktubları, bədii yaradıcılığı haqqında yazılanlar, özünün və yaxınlarının xatirələri və s.), portretdən istifadə edilir.

Psixoloji təsvirdə birinci şəxs tərəfindən təhkiyə üçüncü şəxs tərəfindən aparılan təhkiyədən üstün hesab edilsə də, bioqrafik nəsr üçün sonuncu forma daha münasib hesab edilir. Bu zaman üçüncü şəxsin "qəhrəmanın özünün görə bilmədiyi və ya özünün etiraf etmək istəmədiyi hiss və düşüncələrin"i (Yesin, 1988: s. 37) daha dolğun şərh edə biləcəyi ehtimal olunur. Üçüncü şəxs tərəfindən təhkiyədə "bir çox insanların psixoloji təsvir"nin (Panova, 2011: s. 318) verilməsi də bu formanın üstünlüyü olaraq götürülür. Əsas personajla müasirlərinin taleyi arasında paralellər aparılması psixoloji təsvirin dolğunlaşmasına xidmət edir.

## 3. Müəllif mövqeyi və süjet

Nəzərdən keçirdiyimiz əsərlərdə obrazın təsvir vasitələri, müəllif mövqeyinin təzahür formaları elmi tədqiqat xüsusiyyəti daşıyır: sitatların mənbəyi mətndə göstərilir, obraz analitik üsulla, müxtəlif faktların, sənədlərin, şahid müsahibələrinin qarşılaşdırılması, tədqiqi əsasında canlandılır.

"Kərəm kimi" romanında şairin həyatının bir çox məqamları ilə bağlı müxtəlif məzmunlu əks fikirlər qarşılaşdırılır. Nazim Hikmətin həyatı haqqında birmə nalı hökm verməkdən uzaq olan müəllif, mübahisəli məqamları «süni» şəkildə, təxəyyül vasitəsi ilə tamamlamağa cəhd etməmiş, müzakirələr üçün açıq saxlamışdır. Ənvər Məmmədxanlının həyatının ayrı-ayrı məqamlarının təsvir edildiyi, yaxınları haqqında ayrı-ayrı epizodların yer aldığı povestdə də, bəzi məqamlar sadəcə xatırlansa da, dəqiqləşdirilməmişdir. Obyektivliyi qorumağa çalışan müəllif, yalnız özünə məlum hadisələrdən, məqamlardan bəhs etmiş fərziyyələrdən çəkinmişdir (Məsələn, Ənvər Məmmədxanlının Mehdi Hüseyn ilə münasibətləri sadəcə xatırlanır, aydınlaşdırılmır). "Kərəm kimi" romanının ilk hissələrində sənədlərə müraciət daha çox polemik səciyyə daşıyırsa, son hissədə əsasən bir hadisə haqqında müxtəlif mənbələrdən verilmiş məlumatlar şərh edilmir: Məsələn, Nazim Hikmətin Nüzhətin xanımla münasibətləri haqqında, əvvəlcə Vala Nurəddindən, sonra isə

Emin Qaracanın kitabından verilən parçada bəhs olunur (Anar, 2015: s. 48).

Mətnin strukturunun mürəkkəbliyi, fərqli zaman və məkan koordinatlarının toqquşması, xatirələrdən istifadə süjetin xətti inkişafını inkar edir, süjetin xronoloji ardıcıllığına riayət edilmir. Müəllif kitabı "anılar, düşüncələr (esse, deneme) romanı şəklində" qələmə aldığını qeyd edərək, "N. Hikmət haqqında indiyəcən yazılanlardan fərqli" (Anar, 2015: s. 55) olduğunu vurğulayır.

Bioqrafik əsərlərin iki növü- "hadisələrin ardıcılllıqla nəql edildiyi ənənəvi və psixoloji -assosiativ" əsərlər fərqləndirilir (Галич, 1984). Elmi və elmi-populyar əsərlər ənənəvi əsərlərə, bədi-sənədli əsərləri isə əsasən psixoloji –assosiativ nümunələrə aid etmək olar. Sonuncu növə aid edilən (Narkeviç, 1962: s. 620), əsərlərdə personajın hiss və düşüncələrinin, mənəvi dünyasının bütün mürəkkəbliyi ilə təsviri edilir.

Obrazın bütövlüyünə can atan yazıçı qəhrəmanının həyatı ilə yanaşı yaradıcılıq yoluna da geniş yer vermişdir. Onun dünyagörüşünü və yaradıcılıq stixiyasını dərindən təhlil edən yazar ədəbiyyatşünas yanaşması sərgiləmişdir. "Həyatım ağrıyır" povestində, müəllif, Ənvər Məmmədxanlı haqqında şəxsi görüşlərinin təəssüratları, yaxınlarının onun haqqında xatirələri ilə birgə yazıçının bədii əsərlərindən, məqalələrindən, müsahibələrindən parçalara geniş yer vermiş, yaradıcılığı haqqında yazılanları tam mənimsəyərək roman yazmağa başlamışdır.

Həmçinin, "Həyatım ağrıyır" povestində Ənvər Məmmədxanlının bir çox əsərlərini yenidən işlədiyini qeyd edən yazıçı, onları ilkin variantla müqayisə edərək, birincilərə üstünlük verdiyini qeyd etmişdir: «Gənclik təravətiylə, gənclik çılğınlığıyla yazılmış hekayələrin akvarel boyaları üstündən kömürlə işlənib, hissi tapıntıları bir çox hallarda rasionalist izahlar dayazlaşdırıb. Alatoran mənzərələrin cazibəsi, hüsnü, sonacan açılmamış mətləblərin sehri qeyb olub, səthi şərhi qalıb. Əlbəttə, bu hekayələrin ilk nəşrlərindən bixəbər oxucuları yenidən işlənmiş variantlar da yüksək sənətkarlığı, zərif şeriyyatı, füsunkar diliylə cəlb edəcək, amma həmin əsərlərin «gəncliyini» yaddaşlarında yaşadan mənim kimi oxucular üçün onların yenidən süslənmiş görkəmi müəyyən pərişanlığa, xəyal qırıqlığına səbəb olacaqdır» (Anar, 2004: s. 255-256). Altmışıncılar ədəbi nəslinin yaradıcılığında yer alan «Ənvər motivlərin»dən bəhs edən Anar, yazıçının bədii yaradıcılığı ilə xarakteri arasında oxşarlıq arayaraq yazır: «Bu narahatlıq, doyumsuzluq, dar bir həyat ülgüsü içində darıxmaq Ənvərin bir çox hekayələrində əks olunub-onun qəhrəmanları karvanlara qoşulur, baş götürüb uzaqlara getmək istəyilə çırpınırlar. Gəncliyində yazdığı «Karvan dayandı» hekayəsində də, qocalığında tamamlamaq istədiyi «Babək» romanında da...» (Anar, 2004: s. 252). Bu fikirlərdə, Ə. Məmmədxanlı daim axtarışda olan, reallıqla razılaşmayaraq başqa həyat arzusu ilə yaşayan bir insan olaraq xarakterizə olunmuşdur.

"Kərəm kimi" romanında, həmçinin, Azərbaycan ədəbi mühitinin Nazim Hikmət yaradıcılığına təsiri məsələlərindən, Azərbaycan ədəbiyyatında sərbəst şeirin təşəkkülü, sovet poeziyasının yaradıcılıq problemlərindən, Nazim Hikmətin Azərbaycanın mədəniyyəti, görkəmli şəxsiyyətləri haqqında yazmış olduğu məqalələrindən bəhs olunmuşdur.

Müxtəlif mənbələri öyrənərək fikirlərini bu məlumatlara əsasən formalaşdırması müəllif-təhkiyəçinin tədqiqatçı mövqeyinə yaxınlaşmasına səbəb olur. Mətnin strukturu mürəkkəbləşdikcə, müəllif mövqeyi də mürəkkəbləşir. Xatirələrə xas «mən belə xatırlayıram» ifadəsi «açıqlamağa çalışacağam», «açıqlayacağam» ifadələri ilə əvəzlənir.

Əsərlərə bir çox sənədlərin daxil edilməsi, müxtəlif üslubda, lakin eyni mövzuda yazılmış parçaların yanaşı təsviri əsərin strukturunun mürəkkəbləşməsinə səbəb olmuşdur. Bu materialları üç qrupa bölmək olar:

1. Əsər müəllifinin xatirələri;

2. Bioqrafik personaj haqqında yazılmış kitablar, məqalələr, söylənilmiş fikirlər, şeirlər;

3. Bioqrafik personajın yaradıcılığına müraciət (məktublarından, xatirələrindən, əsərlərindən gətirilmiş sitatlar).

Beləliklə, təhlil olunan nümunələrdə personajların canlandırılmasında ilkin mənbə olaraq, haqqında yazılan xatirələrlə birgə sənətkarın öz yaradıcılığına da müraciət olunmuş, ədəbiyyatşünaş yanaşması sərgiləyən müəllif-təhkiyəçi personajın yaradıcılığını qiymətləndirməkdən çəkinməmişdir.

## 4. Dövrün ictimai-siyasi mənzərəsinn təsviri

Avtobioqrafik və bioqrafik əsərlərdə tarixi dövrün, hadisələrin təsviri əsasən personajin taleyinin açılması üçün fon rolunu oynayır. Lakin, sistem və ziyalı qarşıdurması, sovet dövründə normaya çevrilmiş yaşam tərzi, hakimiyyətin insanlara qarşı amansızlığı, daimi təqiblər və məhrumiyyətlərlə zəngin dövrün, ağır siyasi vəziyyətin canlandırıldığı əsərlərdə dövrün tarixi-siyasi mənzərəsinin təsviri önə çıxır. Təqdim olunan nümunələrdə həm Ənvər Məmmədxanlının, həm də Nazim Hikmətin taleyi cəmiyyətdə baş verən tarixi – siyasi hadisələrlə bağlı təsvir edilir.

Ənvər Məmmədxanlının atası Qəffar «Müsavat» partiyasının Göycayda nümayəndəsi olmuş, sovet hakimiyyəti illərində həbsxanaya düşmüş, sürgün edilmiş, ömrünün son illərini qaçaq həyatı yaşamışdır. Bacılarının xatirələrində atalarının oxumuş adam olması, rus, fars dilini təmiz bildiyi qeyd edilmişdir. Dövrünün bir çox ziyalıları kimi, Şura hökumətinin siyasəti ilə razılaşmadığı üçün o, özü və ailə üzvləri daim təqib edilmişlər.

Yazıçının hökumətə asi olan atasından üz döndərməyərək, onu basdırmaq üçün Tiflisə yola düşməsindən bəhs edən müəllif yazır: «Bəzən cəsurluq üzdə olur, ifrat çılğınlıq, cırtqozluq kimi meydana çıxır. Bir də olur əsl cəsurluq, daxili cəsurluq və belə həqiqi cəsurluq yalnız hərəkətlərdə bəlli olur» (Anar, 2004: s. 296).

Ənvər Məmmədxanlının İkinci Dünya müharibəsində iştirakından sonra ona qarşı münasibət yaxşılaşsa da, sonradan qardaşı Niyazinin müharibədə əsir düşməsi yenidən hakimiyyət tərəfindən təzyiqlə üzləşməsi ilə nəticələnir. “Ənvər ömrünün uzun bir müddətində başının üstündən asılmış Domokl qılıncı atasıyla bağlı idisə və 42-ci ildə atasının

vəfatından, başlanan vətən müharibəsindən, Ənvərin bu müharibənin müxtəlif cəbhələrində iştirakından və İrandakı hərbi-jurnalist xidmətindən sonra bu qılıncın təhlükəsi bir qədər sovuşmuşdusa, onun ikinci süyər yeri məhz bu illərdə, yəni müharibədən sonrakı illərdə meydana çıxmışdı: bu da kiçik qardaşı Niyaziylə bağlı idi" (Anar, 2004: s. 289). Sovetlər ölkəsində keçmiş əsirlərə olan münasibətdən bəhs edən müəllif, Stalin dövrünün dəhşətlərinin yalnız həbsxanalarla bitmədiyini qeyd etmiş, itkin düşmüş insanların ailələrinə göndərilən qara kağızları insana qənim kəsilən Stalin siyasətinin bir ünsürü olaraq qiymətləndirmişdir: «...madam ki, əsir düşüb, deməli, düşməndir, madam ki, düşməndir, özünə hələ əlimiz çatmırsa, hələlik ailəsini cəzalandıraq, diri adamın ölüm xəbərini ailəsinə çatdıraq-bu məntiqlə göndərirlər ölüm kağızlarını» (Anar, 2004: s. 290). Yazıçının qardaşı Niyazinin taleyi, Stalinin - «bizim əsirimiz yoxdur, vətən xainləri var», şüarının qurbanlarına çevrilmiş yüzlərlə insanların faciəsini əks etdirir.

Həmin illərdən bəhs edən müəllif, Stalinin öz oğlunu əsirlikdən azad etməməsini dövrün faciəsi kimi dəyərləndirmiş, bu addımın sovet cəmiyyətində qəhrəmanlıq nümunəsi olaraq qiymətləndirilməsinin özünü sarsıtdığını qeyd etmişdir. Bu fikri «tarixin ən əxlaqsız sözləri» kimi qiymətləndirən yazıçı, «effektli bir frazaya insan həyatını, doğma oğlunun həyatını qurban» (Anar, 2004: s. 291) verən rəhbəri ifşa etmişdir.

Beləliklə, sosial-tarixi hadisələrdən bəhs edən müəllif dövrü təmsil edən tarixi simalarından bəhs edərək onların portretlərini canlandırmışdır.

«Od içində» əsərinin premyerasının ləğv edilməsi (müəllifin sürgün proseslərini təsvir etməkdə suçlanması səbəbindən), həmçinin, yaradıcı insana qarşı yönələn təzyiq vasitələrindən biri idi (sonradan M. Bağırov özü tamaşanı izlədikdən sonra pyesin oynanılmasına izn verir). Ədibin tarixi mövzuya müraciətindən bəhs edən yazar, onun tarixə, tanınmış şəxsiyyətlərə olan marağını vurğulayaraq görkəmli ictimai xadim olan M. F. Axundov haqqında əsər yazmaq istədiyini (sonradan bu fikirdən vaz keçdiyini), Azərbaycan tarixində çar siyasətini, Rus-İran münasibətlərini, Şimali Azərbaycanın ruslar tərəfindən istilasını faktlarla araşdırdığını qeyd etmişdir. Ə. Məmmədxanlının ailəsinin həyat tarixçəsi ilə tanışlıqdan sonra bu marağın əbəs olmadığı aydın olur. Bir çox faktların təhrif edildiyi dövrdə həqiqəti araşdırmaq, gerçəkləri olduğu kimi qiymətləndirmək hər bir ziyalının ümdə istəyi idi.

Həmin illəri Ənvər Məmmədxanlının birbaşa qiymətləndirməsində göstərməyə çalışan yazıçı, yaradıcı insanlara olan münasibəti (Sultan Məcid Qənizadəyə) xatırlayaraq dövrünü «...bu bir dövr idi ki, onun faciəsini ancaq Şekspir qələminə sahib olan sənətkar yarada bilər...» (Anar, 2004: s. 298), Stalini «...şineli rəngdə boz bir həyat qoyub getdi bizə...» (Anar, 2004: s. 298) -deyə xarakterizə etdiyini yazır.

Müasirlərinin Sovet sisteminin Macarıstanı, Çexoslovakiyanı işğal etməsinə etirazından bəhs edən yazıçı, keçirdikləri hissləri Ə. Məmmədxanlının simasında bu cür ifadə edir: «İçindəkiləri, düşündüklərini, duyduqlarını yazılarında demək imkanına malik olmaması da onu bir tərəfdən sıxırdı, boğurdu, həyatını ağrıdırdı» (Anar, 2004: s. 299).

Beləliklə, Ənvər Məmmədxanlı obrazı vasitəsi ilə sovet sistemində dövrün qurbanlarına çevrilən, təqib edilən, nəzarət altında yaşayıb yaratmağa məcbur olan sovet yazıçılarının həyat faciəsinin əks etdirildiyi bəlli olur.

"Kərəm kimi" romanının «Məmləkətmi, ulduzlarmı, gəncliyimmi daha uzaq...» başlıqlı ikinci hissəsində şairin «röyalar ölkəsi» adlandırdığı sovetlər ölkəsinə gəlişi, ədəbi mühitlə tanışlığı, sistemin ona qarşı təzadlı münasibəti, ümidlərinin puç olması təsvir edilmiş, ədəbi mühitin təsviri ilə yanaşı, sovet rejiminin qəddarcasına davrandığı kommunist siyasi xadimlərin talelərindən bəhs olunmuşdur. Özünün müasiri olduğu dövrün təsvirində daha sərbəst olan müəllif, yalnız sənədlərlə məhdudlaşmamış, şahidi olduğu hadisələrin təsvirinə geniş yer vermişdir.

**Nəticə**

Beləliklə, xalq yazıçısı Anarın müstəqillik illərində qələmə aldığı bədii-sənədli əsərlərdə sovet yazıçıları haqqında mövcud mifləri aradan qaldıraraq, onların yeni, gerçək bioqrafiyalarını yaratmağa çalışdığı, eyni zamanda sovet dövrünün sosial-mənəvi mənzərəsinin təhlilinə və müasir zaman müstəvisindən qiymətləndirilməsinə çalışdığı bəlli olur. Təhlillərdən aydın olduğu kimi, bioqrafik janrda müəllif mövqeyinin önə keçməsi ilə mətnin strukturu, süjet-kompozisiya sistemi mürəkkəbləşmişdir.

Hər iki əsərdə əsas personaj fərdi-tipik, xarakterik xüsusiyyətləri, xarici portreti, xasiyyəti, yaradıcılığı ilə birgə ümumilədirilmiş sovet yazıçısı (şairi) olaraq dövr kontekstində -tarixi hadisələr, şəxsiyyətlər müstəvisində fanatikcəsinə inandıqları ideallarının puç olduğundan böyük sarsıntı yaşayan bir nəslin nümayəndələri olaraq canlandırılmışlar.

Bu baxımdan, xalq yazıçısı Anarın "Həyatım ağrıyır", «Kərəm kimi» əsərləri bioqrafik romanın yeni modifikasiyası olaraq maraq doğurur. Adları çəkilən nümunələrdə yazıçının yaradıcı insanın həyat və yaradıcılığı haqqında əsər yaratmağa deyil, daha çox müasiri olduğu dövrü miflərdən azad etməyə çalışdığı bəlli olur.

**Kaynakça**

Anar (2004). "*Həyatım ağrıyır", Anar Əsərləri* (s. 260-321). III cild, Bakı: Nurlan.

Anar. (2015). "Kərəm kimi (Nazim Hikmətin həyat və yaradıcılığı haqqında anılar, düşüncələr romanı)", *Anar Əsərləri*. VII cild. Bakı: Nurlan.

Гинзбург, Л.Я. (1977). *О психологической прозе*. Ленинград: Художественная литература.

Галич А. (1984). *Современная художественная документально – биографическая проза*. Проблемы развития жанров, Автореф. диссер. на соискание уч. ст. к.ф.н., Донецк.

Есин А. Б. (1988). *Психологизм русской классической литературы: кн. для учителя*. Москва: Просвещение.

Колобаева Л. (1999). "Никакой психологии», или фантастика психологии? (О перспективах психологизма в русской литературе нашего века)". *Вопросы литературы*, № 2, с. 3-20.

Местергази Е.Г. (2008). *Художественная словесность и реальность (документальное начало в отечественной литературе XX века)*. Автореферат диссертации на соискание ученой степени доктора филологических наук, Москва.

Муратова М. (2018). *Эволюция документальной прозы в современной таджикской литературе (на примере документальной прозы Дододжона Раджаби)*. Автореферат диссертации на соискание ученой степени кандидата филологических наук, Душанбе.

Наркевич А. (1962). *Биография // Краткая литературная энциклопедия*. (Гл. ред. А. А. Сурков.). М.: Сов. энцикл., 1962-1978. Т. 1: Аарне — Гаврилов. — М.: Сов. энцикл., Стб. 620-621.

Панова Н.Ю. (2011) Психологизм художественной литературы как отражение внутреннего мира человека (теоретический аспект) // Актуальні проблеми слов'янської філології. Випуск XXIV. – Частина 2, с. 312-320.

Романова С.В. (2020). Исторические предпосылки становления художественно документального метажанра в современной русскоязычной прозе Беларуси. Вестник Волжского университета имени В.Н. Татищева № 1, том 1.

Раренко М.Б. (2017). Биография: Эволюция и гибридизация жанра: Аналит. обзор / РАН. ИНИОН. Центр гуманит. науч.-информ. исслед. Отд. языкознания; Отв. ред. Трошина Н.Н. – М.